# Tənhalığı qovan qoşa məzar

## Xalq artistləri Səyavuş Aslan və Yaşar Nurinin ad günlərinə gecikmiş ürək sözlərindən kövrək sətirlər...


"Yalan" (1991).
S.Aslan - Fərəc,
Y.Nuriyev - Umud.

*Əziz oxucular!*

*Mən bu qısa yazımda milli teatr sənətimizin iki qüdrətli aktyorunun – Səyavuş Aslan və Yaşar Nurinin həyat və yaradıcılığının bəzi incə məqam və mətləblərinə çıraq tutmaq istəyirəm. Rollarını uzun-uzadı sadalamaq fikrində deyiləm. Çünki onları sevənlər hər ikisinin teatr, kino və tele-ekran yaradıcılığına yaxşıca bələddirlər. Bununla belə, soruşa bilərsiniz: "Niyə ikisini bir yerdə, bir yazıda?" Bunun niyəsi çox olsa da, iki əsas səbəbindən danıacağam...*

Birincisi, hər iki aktyor Azərbaycan teatrının parlaq və bənzərsiz sənətkarları kimi tarixiləşib. İkincisi, sentyabr ayının 3-də Yaşar Nuriyevin doğum günüdür. Tele-kanallardan birində doğum günü ilə bağlı müsahibə verən Yaşar sözünün sonunda deyirdi: "İki gün sonra, sentyabrın 5-də Səyavuş Aslanın, 8-də İlham Rəhimlinin ad günüdür. Fürsətdən istifadə edib, hər iki qardaşımı əvvəldən təbrik edirəm..."

2011-ci ildə Səyavuş Aslan ad günündə müsahibə verəndə dedi: "İki gün əvvəl Yaşarın ad günüydü. Bir az incisəm də, onu təbrik etmişəm. Deyəsən üç gün sonra, sentyabrın 8-də (bəlkə də 9-da... xəstəlik yaddaşımı korlayıb...) İlham qardaşımın ad günüdür, onu təbrik edirəm. Burdan ona deyirəm ki, söz verdiyini yavaş-yavaş eləsin..."

Söz verməyim də ondan ibarət idi ki, vaxtilə onun haqqında yazdığım kitabı səksən illik yubileyi münasibətilə (2015-ci ildə) yenidən, daha geniş şəkildə işləməliydim. Sponsoru Səyavuş tapmış və o, üçlükdə olan söhbətimizdə qətiyyətlə demişdi: – kitabın çapının bütün xərclərinə mən hazır, heç bir problem ola bilməz...

Aktyorun vəfatından sonra mən işimi gördüm, amma sponsordan bir xəbər çıxmadı...

* * *

Çağdaş milli teatrımızda tək-tək aktyor adı çəkmək olar ki, o qaravəlli xalq oyun-tamaşalarından həssas yaradıcılıqla və məhz Səyavuş Aslan kimi bəhrələnə bilsin. Aktyor qaravəlliyə məxsus çevikliyi, hazırcavablığı, gözlənilməz qrotesk dönüşləri, şux gülüşü, bol yumoru həm hərəkət vasitələrində, həm də sifətin cizgi ifadələrində,




Həsənağa Turabovla


"Ləpələr" (1967).
S.Aslan - Ağabala.


"Hicran" (1973).
L.Abdullayev - Mito,
S.Aslan - Dadaşbala.

baxışlarında təcəssüm etdirirdi. Sənətkar bütün bunları hər dəfə yeni görümdə, daha əlvan, daha zəngin panoram gücündə, son dərəcə fərqli rəng çalarları ilə, ancaq məhz özünəməxsus danışıq-deyim tərzində canlandırırdı. Həmin canlanmada coşqun həyat eşqi, duzlu "sancma", sərt satira, tamaşaçının özü-özünü qınaq, ən əsası isə dinclik və ruhi rahatlıq vardı.

Səyavuş Aslan dramatik, hətta faciə xarakterli obrazları oynamağa da meyilli idi. Daha dəqiq desəm, özü rejissorlardan ona məhz dramatik rollar tapşırılmasını xahiş edirdi. Qərib Qulam ("Mənsiz dünya", Nəbi Xəzri), Ağayi Əşrəfi, Cabbar ("Tənha iydə ağacı" və "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev), Mikayılov ("Tufandan əvvəl", Arif Süleymanov) rolları psixoloji ifadə vasitələrinin dərinliyinə, obrazın ikinci və üçüncü planını dəqiq və estetik həssaslıqla təcəssüm etdirməsinə görə kamil səhnə surətləridir. Uilyam Şekspirin "Hamlet" faciəsində yeni oyun-üslub estetikasında ifa etdiyi Poloni obrazı fəlsəfi psixologizmin çoxqatlı təqdimi və faciə notlarının məsxərə oyunlarının poetika göstəriciləri ilə zərif həssaslıqla uyuşması ilə aktyorun yeni yaradıcılıq imkanlarını üzə çıxarıb.

Səyavuş Aslanın əksər səhnə obrazları sosial miqyaslarına görə dar çərçivəlidirlər və əsasən məişət xarakteri daşıyırlar. Məsələn, İbişov ("Özümüz bilərik"), Fəqan ("Səndən mənə yar olmaz"), Qulam ("Höcət eləmə"), Aslan ("Bizə bircə xal lazımdır"), Şəkərli ("Axırı yaxşı olar"), Qüdrət Səda ("Hardasan, ay subaylıq?"), Şakir ("Dağlar qoynunda"), Türbətəli ("Təzə gəlin"), Tofiq ("Ev bizim, sirr bizim") və sair və ilaxır. Lakin həmin surətlərin rol kimi səhnə təqdimatlarının bədii miqyasları geniş, estetik dəyərləri çoxqatlıdır.

Səyavuş Aslanın aktyor məlahəti bəzən satirik obrazın forma təqdimində əngəl yaradır, yaxud maneə-səddə çevrilirdi. Belə məqamlarda əsas güc aktyorun psixoloji-satirik ifadə vasitələrinin üzərinə düşürdü. Üstəlik də - belə oyun üslubunda satirik obrazın həyati reallığı daha da güclənirdi.

Səyavuş Aslanda heyrətamiz səhnə sərbəstliyi vardı. Bu sərbəstliyin hüsnü-təravəti özünün emosional cazibəsində, estetik ölçülərinin dəqiqliyindəydi.

Aktyor müəyyən bir hərəkət jestindən bəzən üç-dörd tamaşada istifadə edirdi. Lakin bu, aktyorun "təkrara varması" kimi qəbul olunmurdu. Çünki Səyavuş Aslan bunu bilərəkdən, qəsdlə edir və hər tamaşada haqqında söhbət gedən jestə təzə ovqat, təzə xarakter, təzə tipik səciyyə, təzə məna tutumu verə bilirdi.

Səyavuş Aslanın baxışlarındakı aydınlıq və duruluq, çöhrəsinin qabarıq cizgilərindəki sakitlik və cazibədarlıq, təbəssümündəki şirinlik və səmimiyyət, davranışındakı məzə və məhrəmlik aktyorun oynadığı rolların ürəyəyatımlığını əvvəlcədən təminatlandırırdı.

Tamaşada hansısa aktyora bədii reallıq kimi görünən vəziyyət başqa bir sənətkar üçün qeyri-real, qeyri-səmimi, məntiqdən uzaq təsiri bağışlaya bilər. Səyavuş Aslanın özü üçün müəyyənləşdirdiyi bədii reallıq həmişə tamaşanın ümumi estetik kontekstinə



"Kəndçi qızı" (1976).
Y.Nuriyev - Alışov,
S.İbrahimova - Göyərçin.

əsaslanırdı. Hətta dediyim həmin kontekst tamaşada aydın olmayanda Səyavuş Aslanın əsas obraz üçün tapdığı bədii məntiq ümumi səhnə konsepsiyasını müəyyənləşdirmək gücündə görünürdü.

**Səyavuş Aslan buffonada elementlərini obrazın psixoloji ağrıları, sarsıntılı düşüncələrilə qovuşduraraq onları realist aktyor məktəbinin ifadə vasitələri ilə təcəssüm etdirirdi. O, "fərd və cəmiyyət" problemi ilə üzləşən, zəif xarakterli obrazları gülməli, dadlı-duzlu oynadığı qədər də onları düşündürücü, psixoloji baxımdan təzadlı göstərməyi bacarırdı.**

Səyavuş Aslan "yalan və həqiqət" motivli hadislərdə davranan obrazları sərt süjetin üzvi bədii təcəssümü kimi canlandırır və onlara əlvan emosional xüsusiyyətlər aşılayırdı.

Səyavuş Aslan həm dramaturji material, həm rejissor yozumu baxımından elə alaçiy tamaşalarda oynayıb ki, orada əməl-fəaliyyət xətti və ikinci plan, ali məqsəd və tamaşanın atmosferi, konflikt və mübarizələr primitiv şəkildə üzdə görünür. Ancaq aktyor özünün səhnədə tip yaratmaq bacarığı ilə oynadığı rolu dinamik və canlı, gülməli və yaddaqalan edə bilib.

* * *

Yaşar Nuriyev əzəmətli aktyor idi. Bu əzəmətin mayasında yaradıcı istedad, axtarışlarının təkamülü durduğuna görə, o, səhnə boşluğunu təkbaşına doldura bilirdi. Aktyor boş səhnədə pauza ilə tamaşaçıları xeyli vaxt intizarda və psixoloji gərginlikdə saxlaya bilirdi. Janrından asılı olmayaraq, belə tamaşalarda Yaşarın yaradıcılığının möhtəşəmliyi, monumental teatr estetikasına cavab verməsi daha qabarıq görünürdü.

Yaşar Nuriyev cəsarətli aktyor idi. Qəliz rəqs nömrələrini, muğam və ya estrada, yaxud aşıq musiqisi üzərində qurulan satirik, dramatik, psixoloji, komik, qroteskli, karnaval estetikasına uyğun obrazların ifasına qətiyyətlə girişirdi. Həssas musiqi duyumu, səsinin şirinliyi, daxili ritmi yaradıcılıq kəhkəşanında geniş qanad açmasını təmin edirdi. Yaşar Nuriyevin cəsarəti aktyorun istedadının əsas bir keyfiyyəti kimi, bütün tamaşa və filmlərdə özünün estetik təcəssümünü tapırdı.

Yaşar Nuriyev canlı, təravətli, dinamik, dadlı-tamlı, nikbin, həyatsevər, zəhmətkeş, ən əsası isə tamaşaçıların intizarında olduqları, onların böyük rəğbətini qazanmış sənətçi idi. Yaşar səhnəyə çıxdığı məqamda alqışlarla qarşılanmadığı məqam yadıma gəlmir. Aktyor bu məhəbbətdən süni istifadə etmir və mütləq hər yeni rolda nəsə təzə bir ştrixlə, detalla, ifadə vasitəsilə heyranlarını sevindirirdi. Əksər tamaşalarda isə mütləq bir ibarəli, xaraktetrik ifadə tapırdı. Tapdığını obrazın psixoloji mahiyyəti ilə uzlaşdırır, onun reallıq zəmininin özülünü möhkəm qururdu.

Yaşar Nuriyev özünü komediya aktyoru kimi lap gənc yaşlarından inamla təsdiqləsə də, dramatik və psixoloji rolları, hətta faci çalarlarla işlənmiş obrazları oynamaq bacarığını cəsarət və qətiyyətlə sübut edib. O, psixoloji gərginliyi duyan, onun mahiyyətindəki müxtəlifliyi (lirizmi, həzinliyi, faciəviliyi, melodramanı və sair) dəqiq ayırd edən və obraz üçün dəqiq olanını qətiyyətlə seçməyi bacaran aktyor idi.

**Onun böyük sənət qələbələri həmişə mübahisəsiz, tərəddüdsüz qəbul olunub. Bunun kökündə güclü istedad nəhri dursa da, sənətkarın sənət qələbəsi əsas enerji qüdrəti və çevikliyini onun cazibəli, yapışıqlı səhnə məlahətindən alırdı. İfa etdiyi səhnə və ekran obrazının xarakterindən asılı olmayaraq, oyununu rəğbətlə, ehtirasla, məhəbbətlə izləməmək mümkün deyildi.**

Yaşar Nuriyev bir aktyor kimi nadir və heyrətamiz emosionallığa malik idi. Bu emosionallığı aktyorun qroteskli, bədii təsvir vasitələri şişirdilmiş, hiperbola səciyyəli səhnə və ekran surətlərini də təbii cizgilərlə reallaşdırırdı. Buna görə də aktyorun ilk təqdimatında yalnız bədii personaj kimi baxdığımız "uydurma" görünə bilən obrazı tamaşanın və ya filmin sonunda həyati, real insan kimi qəbul edirik.

Yaşar Nuriyevin istedadının qüdrət və möhtəşəmliyinin nəticəsidir ki, o, kiçik rolu böyük bədii sənət nümunəsi kimi təqdim etməyi ustalıqla bacarırdı. Aktyorun illər boyu formalaşdırdığı və müəyyən mənada özəlləşdirdiyi yumor zərifliyi, psixoloji dərinlik kimi keyfiyyətlərlə yanaşı, onun səngiməyən səhnə temperamenti, sənət ehtirası da vardı. Bunların bədii-estetik qovuşuğu aktyorun uğurlarını təminatlandırırdı.

Yaşar Nuriyevin istedadının komizmi və xarakter yaratmaq bacarığı həm janrın vacib tələblərinə, həm mövzunun mahiyyətinə, həm də obrazın bədii-estetik səciyyələrinə əsaslanırdı. Aktyor çox mürəkkəb janrlarda da sərbəstliyini və yaradıcılıq ruhunu həssaslıqla saxlayır. Yaşar Nuriyev hətta janr içində başqa janrın estetikasından da bəhrələnə bilirdi. Təbii ki, onun bu cəhdi ilk növbədə oynadığı obrazın psixoloji durumuna əsaslanırdı.

Yaşar Nuriyev teatrda, televiziyada, kinoda təzə rol oynayanda bütün bədii imkanlarını səfərbər edirdi. Qoruyub saxladığı təzə ifadə vasitələrinin qapısını açırdı. Buna görə də hər təzə rolda ilk növbədə tanıyıb sevdiyimiz Yaşar Nuriyevin yeni səhnə və ya ekran personajını görürdük. Həmin "ikilik" həmişə ahəngdar vəhdətdəydi və aktyorun istedadının qüdrəti ona möhtəşəmlik aşılayırdı.

Yaşar Nuriyev lirik obrazların ifasında bədii materialın məna



dəyərini, fikir yükünü qəlbinin duyğuları ilə şairanə poetikliklə çatdırırdı. Bununla da incəsənətin həqiqi gücünü təsdiqləyir, tamaşaçı gördüyü yaradıcılıq nümunəsini real həyat hadisəsi kimi qəbul edirdi.

Yaşar Nuriyev ilk növbədə komediya aktyoru kimi qəbul edilir. Adətən komik aktyorların gözlərində qəribə, müəmmalı qəm olur. Ancaq onun gözlərində dediyim qəm yox idi. Amma yeri gələndə, yəni oynadığı rolun psixoloji sarsıntılarına uyğun olaraq, aktyor öz baxışlarına həzin qəm ruhu verə bilirdi.

* * *

Yaşar Nuriyev haqqında 60 yaşı münasibətilə yazdığım "Yaşadan əbədi Yaşar" kitabım çap olunan ərəfədə Yaşar İstanbulda xəstəxanada idi. Mətbəədə bir neçə nüsxə hazırlatdırıb həyat yoldaşı Rəhimə xanımla ona göndərdim. Onunla demək olar, hər gün telefonla danışırdıq. Növbəti zəngdə söhbətimiz belə oldu:

- Salam, Yaşar. Necəsən, qardaş?

- Əleykəssalam, sənətkar (mənə çox vaxt sənətkar deyirdi). Necə olacam, qalmışam həkimlərin əlində... Öz ciyərimin axırına çıxdım, görək bu bədbəxtin ciyəri üzümə necə baxacaq.

- Yaxşı olar, inşallah... Kitablar gəlib çıxdı?

- Baaa. Özü də necə?!.

- Xoşuna gəldi? Ordan-burdan vərəqləyib oxuya bilmisən?..

- Hardan oxuyum? (Osmanlı ləhcəsində) "Yaşar bey, şimdi bakım nasıl bir kitab" deyə-deyə hərəsini bir həkim aparıb. Heç əməlli-başlı baxa bilməmişəm. Amma sağ ol, forması-zadı xoşuma gəldi.

- Hazırlaş, Bakıya gələndə təqdimatını keçirərik.

- Bəli, sənətkar. Bəli, bəli, bəli və yüz dəfə bəli (güldü).

- Sözümüz sözdür?

- Yüz faiz... Həəə, bax, ürək sözlərimi qardaşıma o təqdimatda deyəcəm... Eşidib-görərsən necə deyəcəm... Söz deməyi tək elə siz "şünaslar" bacarmırsız ey, biz də yeri gələndə tutuzdururuq...

Yaşar 44 illik dostluğumuzun tarixində ilk dəfə mənə verdiyi sözə əməl etmədi...

Bu kitabın təqdimatı Yaşarsız keçdi...

* * *

Ömürlərinin son 4-5 ilində Səyavuşla Yaşar tez-tez ərkyanalıqla küsüb-barışırdılar. Amma di gəl ki, təklikdə hər ikisi o biri haqqında ağız dolusu tariflər söyləyirdi.

Rejissor Məhərrəm Bədirzadə deyir ki, Səyavuşun yanına getmişdim. Televiziyada Yaşarın nekroloqunu oxuyurdular, müxtəlif tamaşalardan şəkillərini, fotolarını göstərirdilər. Səyavuş nekroloqu başa düşmədi, çünki halı özündə deyildi. Məndən soruşdu:

- Yaşar necədir?

Dillənmədim... Asta-asta dedi:

- Böyük aktyordu... yastığı yüngül olsun... Amma incimişəm... çoxdandı yanıma gəlmir... Yəqin yasıma gələr (gözü doldu)...

Səyavuş bilmirdi ki, Yaşar son aylar İstanbulda xəstəxanada ölümlə çarpışır...

Və həyat elə gərdiş etdi ki, Yaşar Səyavuşdan 6 ay beş gün tez dünaysını dəyişdi...

Amma Səyavuş inciməyində qalırdı ki, Yaşar onu yoluxmur...

Bu da taleyin qəribə bir işidir... İkinci Fəxri Xiyabanda Yaşar Nuriyevlə Səyavuş Aslanın məzarları arasında bircə məzar var...

Ruhları bir məkanda görüşür...

* * *

**Əziz dostlarım Səyavuş və Yaşar!**
**Əminəm ki, umu-küsünü unutmusunuz...**
**Ad gününüzü təbrikə gecikdiyim üçün məni bağışlayın...**
**Dünyaya gəlişiniz mübarək!..**
**Sənətiniz mübarək!..**
**Yaddaşlarda əbədiləşən sənət abidələriniz mübarək!..** ❖

İlham Rəhimli



"Övlad" (1974).
Y.Nuriyev - Silva,
Z.Ağakişiyeva - Makarskaya.



"Bəyin oğurlanması" k/f (1958).
Y.Nuriyev - İsrafil